"Qələmin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi yolunda xidmət etməkdir"
*Cəlil Məmmədquluzadə*



# ÇIRAQ

15 fevral 2019-cu il № 1 (256) Qəzet 1992-ci ildən çıxır. Siyəzən rayonunun ictimai-siyasi qəzeti. Qiyməti müqavilə yolu ilə



**Xalq-iqtidar birliyi hər bir ölkənin inkişafı üçün əsas şərtdir. Sabitliyin qorunmasının təminatçısı Azərbaycan xalqıdır. Son prezident seçkilərində mənə göstərilən böyük etimad dediyim sözlərin məntiqi sübutudur. Sabitlik olmayan yerdə ölkələr dağılır, insanlar əziyyət çəkir, fəlakətlər baş verir. Biz bunu yaxın tarixdə görürük. Ona görə Azərbaycanda sabitliyin möhkəmləndirilməsi hər bir vətəndaşın işi olmalıdır, ilk növbədə, dövlətin və hər bir vətəndaşın. Mən çox şadam ki, bu gün Azərbaycan dünyada sabitlik adası kimi tanınır. Bu, bizim böyük üstünlüyümüzdür. Bu, bizə imkan verir ki, Azərbaycan islahatlar yolu ilə uğurla getsin. Bu, bizə imkan verir ki, öz iqtisadi imkanlarımızdan istifadə edib, xalqımızın rifah halının yaxşılaşmasına yönəlmiş növbəti addımlar atılsın. Bu, bizə imkan verir ki, Azərbaycan xalqı bundan sonra da sülh və əmin-amanlıq şəraitində yaşasın.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

## RƏSMİ XRONİKA



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva fevralın 1-də Daxili İşlər Nazirliyinin Bakı şəhərinin Xətai rayonunda yeni inşa olunmuş 6 saylı uşaq bağçasının açılışında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı Raşid Temrezovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Fevralın 1-də Bakı Konqres Mərkəzində Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ukraynada yaşayan soydaşlarımız Umud və Sabir Şirinov qardaşları ilə görüşüblər. Dövlətimizin başçısı həyatları təhlükəyə məruz qalan insanların xilası zamanı göstərdikləri şəxsi şücaətə görə onları «İgidliyə görə» medalı ilə təltif edib.

Fevralın 1-də Bakı Konqres Mərkəzində Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısı keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər. Dövlətimizin başçısı tədbirdə nitq söylədi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Beynəlxalq Astronavtika Federasiyasının icraçı direktoru Kristian Faythingeri qəbul edib.





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Formula 1 Qrupunun baş icraçı direktoru Çeyz Kerini qəbul edib. Formula 1 Qrupunun baş icraçı direktoru Çeyz Keri Azərbaycana növbəti səfərindən məmnunluğunu ifadə edərək bildirdi ki, Formula 1 çərçivəsində ötən il keçirilən 21 yarışın təhlili nəticəsində Bakıda keçirilən bu yarış ən yaxşı yarış hesab edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Moskvanın və bütün Rusiyanın Patriarxı Kirillə görüşüb.

Fevralın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev zəlzələnin baş verdiyi Şamaxı rayonunda olub. Dövlətimizin başçısı zəlzələdən zərər çəkən tikililərə baxıb, sakinlərlə söhbət edib.

Xəbər verildiyi kimi, fevralın 5-6-da Azərbaycan ərazisində yeraltı təkanlar qeydə alınıb. Fevralın 5-də yerli vaxtla saat 23:31-də Pirqulu stansiyasından 11 kilometr cənub-qərbdə İsmayıllı ərazisində zəlzələ olub. Respublika Seysmoloji Xidmət Mərkəzinin məlumatına görə, zəlzələ episentrdə 6 bal, ətraf rayonlarda 5-3 bala qədər hiss edilib. Hadisə nəticəsində xəsarət alanlara təcili tibbi yardım göstərilib və onlar evə buraxılıb, insan tələfatı qeydə alınmayıb.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da Rusiya Federasiyasının iqtisadi inkişaf naziri, Azərbaycan-Rusiya Hökumətlərarası Komissiyanın həmsədri Maksim Qreşkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 11-də Niderland Krallığı Senatının sabiq sədri, Avropa Şurası Parlamenti Assambleyasının fəxri sədri, Niderland-Azərbaycan Dostluq Qrupunun sədri Rene Van der Lindeni qəbul edib.



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva fevralın 11-də Bakının Nərimanov rayonundakı Uşaq Psixonevroloji Mərkəzində olub. Dəfələrlə bu müəssisəyə gələn Mehriban xanım Əliyeva tibbi bərpa və təlim-tərbiyə prosesləri ilə yaxından maraqlanıb, mövcud problemlərin həllinə dair tapşırıqlar verib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva fevralın 11-də Bakının Nəsimi rayonundakı 1 nömrəli körpələr evində, Bakının Nəsimi rayonundakı 268 nömrəli xüsusi məktəbdə də olub, uşaqlarla görüşüb, şagirdlərin təhsili ilə maraqlanıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Real televiziyasının rəhbəri Mirşahin Ağayevə geniş müsahibə verib.

Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beyləqan rayonuna səfərə gəlib. Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Beyləqan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beyləqan rayonuna səfəri çərçivəsində Mingəçevir-Stansiya Mingəçevir-Bəhramtəpə-Beyləqan avtomobil yolunun açılışında iştirak edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Beyləqan Olimpiya İdman Kompleksinin, əsaslı şəkildə yenidən qurulan Beyləqan Tarix-Diyarşünaslıq Muzeyinin, yenidən qurulan 110/\/35/10 kV-luq «Beyləqan-1» yarımstansiyasının açılışlarında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev fevralın 13-də Müdafiə Nazirliyinin Beyləqan rayonu ərazisində yeni inşa edilmiş «N» saylı hərbi hissəsində yaradılan şəraitlə tanış olub.

Fevralın 14-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Gəncə şəhərinə gəliblər. Gəncədə «İmamzadə» dini kompleksini ziyarət ediblər, Nizami Aydın adına 18 nömrəli tam orta məktəbdə, Mir Cəlal Paşayevin ev-muzeyində olublar

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva fevralın 14-də Gəncənin görməli yerlərindən biri olan «Xan Bağı» mədəniyyət və istirahət parkında sakinlərlə görüşüblər.

**AZƏRTAC**

# ŞƏHİDLƏRİN XATİRƏSİ YAD EDİLMİŞDİR



Bəşəriyyət tarixində ən təzadlı və ziddiyyətli dövr olan XX əsr həm də imperiyaların çökməsi, əsarət və zülm altında qalan ölkələrin və xalqların azadlığa çıxması ilə səciyyələnir. Milli azadlıq hərəkatları ilə müşayiət olunan müstəmləkə sistemini dağıtmaq missiyası sanki XX əsrin üzərinə düşmüşdü. Dünyanın sonuncu və ən böyük imperiyası hesab edilən SSRİ-nin tarix səhifəsindən silinməsi prosesi də bu əsrin sonunda başa çatdı. Yeni yüzilliyə hər bir xalq əsarət zəncirindən, imperiya buxovlarından azad şəkildə qədəm qoydu.

Azərbaycanda bu proses daha ağrılı keçirdi. 1987-1988-ci illəri xatırlayaq. Yerevanda Moskva ilə razılaşdırılmış bədnam «Qarabağ məsələsi»- Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi məsələsi qaldırıldı. Bunun ardınca azərbaycanlıların öz dədə-baba yurdlarından kütləvi şəkildə qovulması, Dağlıq Qarabağda etnik təmizləmə prosesi başladı. İnsan hüquqları kütləvi surətdə pozulur, Azərbaycan xalqına qarşı tammiqyaslı soyqırım siyasəti həyata keçirildi.



Artıq Azərbaycan xalqı imperiya rəhbərlərinin məkrli niyyətlərini başa düşmüşdü. Buna etiraz olaraq Bakıda kütləvi mitinqlər başlamışdı. Bu, böyük xalq hərəkatının başlanğıcı idi.

Vəziyyət günbəgün gərginləşməkdə idi. Respublika rəhbərliyinə də inam tədricən öləziyirdi. Moskva xalqımızın qeyrətli oğullarını susdurmaq üçün Bakıda 20 Yanvar faciəsini törətdi. Məlum hadisələrin ertəsi günü ümummilli lider Heydər Əliyev həyatını təhlükə altında qoyaraq ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək, orada imperiyanın bu qanlı cinayətini lənətləyən qəzəbli bəyanat vermişdi. Onun bu bəyanatı bütün planeti dolaşdı. İmperiyanın mövcud olduğu 73 il ərzində onun əleyhinə hələ belə sərt və cəsarətli bəyanat verməyə heç kəs cürət etməmişdi. Heydər Əliyev Sovet ordusunu, onun başında duranları, Sovet rəhbərliyini ağır ittiham etdi, «qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdırlar», dedi.

20 Yanvar faciəsinin 29-cu ildönümü ilə əlaqədar Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı cənab Asif Hüseynov Siyəzən şəhərindəki Şəhidlər xiyabanını ziyarət etmişdir. Şəhidlərin xatirəsinə ucaldılmış abidənin önünə rayon rəhbərliyi adından əklil qoyulmuş, xiyabandakı şəhid məzarları ziyarət edilərək önünə tər qərənfillər düzülmüşdür. Xiyabana axın edən rayon sakinləri şəhidlərimizin əziz xatirəsini ehtiramla yad etmişlər.

20 Yanvar faciəsi ilə əlaqədar rayonun idarə, müəssisə və təşkilatlarında da Vətənlə, torpaqla, Qarabağla, şəhidlərimizlə bağlı tədbirlər keçirilmişdir.

**R. MURADOVA.**

# MÜASİR ÇAĞIRIŞLAR: DİNİ QURUM VƏ VƏZİFƏLƏR

Rayon Mədəniyyət Mərkəzində Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi və Siyəzən Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə «Müasir çağırışlar: Dini qurum və vəzifələr» mövzusunda konfrans keçirilib.

Konfransda dövlət-din münasibətləri sahəsindəki siyasətin əsas istiqamətləri, dini qurum və vəzifələr, multikultural dəyərlərin qorunması, eyni zamanda tolerantlıq mühitinin, milli-mənəvi dəyərlərə bağlılığın gücləndirilməsi barədə müzakirələr aparılıb.

Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynov çıxış edərək son illər ölkəmizin bütün bölgələrində olduğu kimi, Siyəzən rayonunda da müasir çağırışlar, dini qurum və milli-mənəvi dəyərlərin təbliği istiqamətində görülən işlərdən danışıb. O, ölkəmizin dinlərarası dialoq və əməkdaşlıq sahəsindəki təcrübəsinin bütün dünyada məqbul bir model kimi yüksək qiymətləndirildiyini qeyd etdi.

Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı isə ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi, dini sahədə sabitliyə nail olunması istiqamətində görülən işlərdən danışaraq konfessiyalar arasında dözümlülük mühitinin dövlət səviyyəsində qorunub saxlanılmasının ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib. Qeyd olundu ki, Ulu Öndərin dövlət-din münasibətləri sahəsindəki nümunəvi siyasəti onun layiqli siyasi varisi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla reallaşdırılır.

Komitə sədri gənc nəslin milli ruhda tərbiyə edilməsinin vacibliynə də toxunub. O, bu sahədə dövrün tələblərinə uyğun islahatların aparılmasının, savadlı milli kadrların hazırlanmasının və milli-mənəvi dəyərlərimizin təbliğ və təşviq edilməsinin dövlət-din münasibətlərinin tənzimlənməsi işinə müsbət nəticələr verəcəyini qeyd edib.

Sonda çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi Cavanşir Əfəndiyev dövlətin dinə və din xadimlərinə qayğısından bəhs edib, diqqət və qayğıya görə bölgə dindarları adından cənab Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

**«Çıraq»**

## Siyəzən Rayon İcra Hakimiyyəti başçısı aparatında vətəndaşların qəbulu CƏDVƏLİ

| Sıra № | Vəzifəsi | Soyadı, adı və atasının adı | Qəbul günü | Qəbul saatı |
|---|---|---|---|---|
| 1 | Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı | Hüseynov Asif Həbib oğlu | çərşənbə axşamı | saat 11:00-dan başlayır |
| 2 | Başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | Əliyev Zəfər Nüsrət oğlu | bazar ertəsi | saat 14:00-dan başlayır |
| 3 | Başçının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | Bəxtiyarova Təhminə Vahid qızı | çərşənbə | saat 14:00-dan başlayır |
| 4 | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri | Bəşirov Xaqani Paşa oğlu | cümə | saat 11:00-dan başlayır |
| 5 | Memarlıq və tikinti şöbəsinin müdiri-baş memar | Novruzov Səxavət Mehdi oğlu | bazar ertəsi | saat 10:00-dan başlayır |
| 6 | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri | Mursaquliyev Feyyaz Lətifulla oğlu | cümə axşamı | cümə axşamı |
| 7 | İnformasiya təminatı və təhlil sektorunun müdiri | Mürvətov Rəhman Nəcməddin oğlu | çərşənbə | saat 10:00-dan başlayır |

**Qeyd:** 1. Milli qəhrəman və onların ailə üzvləri, şəhid ailəsi üzvləri, Qarabağ əlilləri və digər imtiyazlı şəxslər növbədənkənar qəbul olunurlar.
2. Rayon İcra Hakimiyyəti başçısının qəbulu günləri bayram günlərinə düşdükdə qəbul növbəti iş gününə keçirilir.
3. Vətəndaşların qəbulu ilə əlaqədar əlaqə telefonu: (23) 304-00-10

## Siyəzən Rayon İcra Hakimiyyəti başçısının 2019-cu ilin fevral ayında keçirəcəyi səyyar qəbulların QRAFİKİ

| S. №-si | Qəbulun keçiriləcəyi yer | Tarix | Saat |
|---|---|---|---|
| 1. | Orta Çalğan kəndi, açıq havada | 15.02.2019 | 11:00 |
| 2. | Qalaşıxı kəndi, açıq havada | 22.02.2019 | 11:00 |

## Dövlət orqanlarının yerli qurumlarında vətəndaşların qəbulu CƏDVƏLİ

| S. №-si | Vəzifəsi | Soyadı, adı və atasının adı | Qəbul günü və saatı |
|---|---|---|---|
| 1. | Siyəzən Rayon Gənclər və İdman İdarəsinin rəisi | Məmmədov Nadir Əmrulla oğlu | Cümə günü, saat 10:00-dan başlayır |
| 2. | Siyəzən Rayon Təhsil Şöbəsinin müdiri | Hacıyev Rəfail Məmmədrıza oğlu | Bazar ertəsi günü, saat 10:00-dan başlayır |
| 3. | Siyəzən Telekommunikasiya Qovşağının rəisi | Kəbirov Rafiq Kəbir oğlu | Hər iş günü, saat 15:00-dan başlayır |
| 4. | Siyəzən Regional Müalicə Diaqnostika Mərkəzinin baş həkimi | Hümbətov Dadaş Ümüd oğlu | Hər iş günü, saat 11:00-dan başlayır |
| 5. | Siyəzən rayon Mərkəzi Poliklinikanın baş həkimi | Quliyev Əhməd Əli oğlu | Hər iş günü, saat 10:00-dan başlayır |
| 6. | Siyəzən rayonu Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru | Yaqubov Mehman Nəcməddin oğlu | Bazar ertəsi günü, saat 10:00-dan başlayır |
| 7. | Xaçmaz Regional Qaz İstismar İdarəsinin Siyəzən Xidmət Sahəsi üzrə rəis müavini | Cəfərov Natiq Xəlil oğlu | Çərşənbə axşamı və cümə axşamı günü, saat 15:00-dan başlayır |
| 8. | Xaçmaz Regional Sukanal idarəsinin Siyəzən abonent işləri sahəsinin rəisi | Cabbarov Eldar Pənah oğlu | Çərşənbə axşamı və cümə günü, saat 15:00-dan başlayır |
| 9. | Dövlət Sosial Müdafiəsi Fondunun Siyəzən rayon şöbəsinin müdiri | Yusifova Kamilə Şəmsəddin qızı | Çərşənbə axşamı və cümə axşamı günü, saat 10:00-dan başlayır |
| 10. | Siyəzən Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin direktor əvəzi | Allahyarov Bəybala Ağa oğlu | I, III, IV günlər, saat 11:00-dan başlayır |
| 11. | Siyəzən Rayon Kənd Təsərrüfatı İdarəsinin rəis əvəzi | Hüseynov Ənvər Əlbala oğlu | Hər iş günü saat 10:00-dan başlayır |
| 12. | Siyəzən rayon Baytarlıq İdarəsinin rəisi | Qasımov Seyfulla Eynulla oğlu | Çərşənbə günü, saat 10:30-dan başlayır |
| 13. | Siyəzən rayon Məşğulluq Mərkəzinin direktoru | Heydərov Etibar Murad oğlu | Çərşənbə günü, saat 10:00-dan başlayır |
| 14. | Siyəzən rayonu üzrə Maliyyə Şöbəsinin rəisi əvəzi | Əlibəyov Rəsul Bilal oğlu | Cümə günü, saat 10:00-dan başlayır |
| 15. | «Azərpoçt» MMC-nin Siyəzən Poçt Filialının rəisi | Əliyev Akif Hacı oğlu | Bazar ertəsi və cümə axşamı günü, saat 14:00-dan başlayır |

**Qeyd:** 1. Milli qəhrəman və onların ailə üzvləri, şəhid ailəsi üzvləri, Qarabağ əlilləri və digər imtiyazlı şəxslər növbədənkənar qəbul olunurlar.

# SİYƏZƏN RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI ASİF HÜSEYNOVUN 2018-Cİ İLİN YEKUNLARI İLƏ BAĞLI HESABAT MƏRUZƏSİ

Yanvarın 11-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilmişdir. Dövlətimizin başçısı iclasda giriş nitqi söyləyərək bildirmişdir ki, 2018-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. Dünyada və bölgəmizdə gedən proseslərdən asılı olmayaraq Azərbaycan uğurla, sürətlə inkişaf etmişdir. Keçən ilin əvvəlində qarşıya qoyulmuş bütün vəzifələr icra olunmuş, ölkəmizin hərtərəfli dinamik inkişafı təmin edilmişdir. 2018-ci ildə regionların üçüncü sosial-iqtisadi inkişafı Dövlət Proqramı başa çatmış və bu beşillik proqram artıqlaması ilə yerinə yetirilmişdir. Bu il regionların dördüncü sosial-iqtisadi inkişafı Dövlət Proqramı qəbul ediləcəkdir.

Ölkəmizdə həm ictimai-siyasi, həm də sosial-iqtisadi məsələlərlə bağlı vəziyyət sabit olmuş və ölkəmiz dinamik inkişaf yolunu davam etdirmişdir. Həmçinin keçən il xarici siyasət sahəsi də uğurlu olmuş, cənab prezident 16 xarici ölkəyə səfər etmiş və Azərbaycana 16 dövlət və hökumət başçısı gəlmişdir. Bu bir daha onu göstərir ki, Azərbaycanın xarici siyasəti çoxşaxəlidir və dövlətimizlə əməkdaşlıq edən ölkələrin sayı gündən-günə artır. Yola saldığımız 2018-ci il Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlığın prioritetləri adlı mühüm sənəd imzalanmışdır. Bu sənəddə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olan məsələlər çox müsbət xarakter almış və Azərbaycanın ərazi bütövlüyünə, sərhədlərinin toxunulmazlığına dəstək və hörmət ifadə olunmuşdur. Beləliklə, Avropa İttifaqı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli yolları ilə bağlı öz fikrini birmənalı şəkildə ortaya qoymuşdur. Eyni zamanda, keçən il NATO-nun Zirvə görüşündə qəbul edilmiş yekun bəyannamədə də Azərbaycanın ərazi bütövlüyünə dəstək və hörmət bir daha öz əksini tapmışdır.

Bununla yanaşı, 2018-ci ildə dövlətimizin hərbi potensialına daha böyük diqqət göstərilmiş və ordumuzun döyüş qabiliyyəti daha da artmışdır. Naxçıvan əməliyyatı nəticəsində bu gün Azərbaycan ordusu işğal olunmuş 11 min hektar torpağa tam nəzarət edir. Geri alınmış yüksəkliklər ordumuza Ermənistanı Dağlıq Qarabağla birləşdirən yola tam nəzarət etmək üçün imkan yaradır.

Keçən il sosial problemlərin həlli istiqamətində böyük işlər görülmüşdür. Belə ki, 5800-dən çox köçkün ailəsinə, 620-dən çox şəhid ailəsi və Qarabağ müharibəsi əlillərinə yeni evlər, mənzillər verilib və bu işlər növbəti illərdə də davam etdiriləcəkdir.

Bütün bu işləri görmək üçün iqtisadi güc olmalıdır və Azərbaycan bu gücə malikdir. Ona görə də Dünya Bankının hesabatında Azərbaycan il ərzində 32 pillə irəliyə getmiş, biznesi aparmaq üçün yaradılan şəraitə görə isə ölkəmiz dünya miqyasında 25-ci yerə qalxmışdır.

Ölkəmizin bütün iqtisadi göstəriciləri çox müsbətdir. 2018-ci ildə ümumi daxili məhsul 1,4 faiz, qeyri-neft sektorunda inkişaf 1,8 faiz, sənaye istehsalında 1,5 faiz, qeyri-neft sektorunda sənaye istehsalı 9,1 faiz, kənd təsərrüfatı 4,6 faiz, inflyasiya cəmi 2,3 faiz olmaqla, əhalinin pul gəlirləri 9,2 faiz artmışdır. Ölkə iqtisadiyyatına keçən il 17,2 milyard manat sərmayə qoyulmuşdur ki, bunun da 11 milyard manatdan çoxu qeyri-neft sektoruna sərf olunmuşdur.

Keçən il ölkəmizin valyuta ehtiyatları 45 milyard dollara çatmış, xarici borc 22,8 faizdən 19 faizə düşmüş və valyuta ehtiyatları xarici borcu 4-5 dəfə üstələmişdir. İxrac isə 36 faiz artmışdır.

İl ərzində 118 min daimi iş yeri yaradılmış, üçüncü peykimiz orbitə buraxılmış və Azərbaycan kosmik dövlət kimi öz mövqelərini daha da möhkəmləndirmişdir.

2018-ci ildə Cənub Qaz Dəhlizinin rəsmi açılışı olmuş, TANAP layihəsi işə düşmüş və Ələt Beynəlxalq Dəniz Ticarət Limanı öz işinə başlamışdır. Beləliklə, Azərbaycan tranzit ölkə kimi artıq özünü dünyada təsdiqləmişdir.

Yekun nitqində 2019-cu ildə qarşıya qoyulan vəzifələrin icra olunacağına əminliyini ifadə edən Prezident cənab İlham Əliyev qazlaşdırma, içməli su təminatı, kənd və magistral yolların salınması, meliorativ tədbirlərin görülməsi, məcburi köçkünlərin, şəhid ailələri və Qarabağ əlillərinin, həmçinin hərbçilərin sosial şəraitinin yaxşılaşdırılması ilə bağlı tədbirlərin həyata keçiriləcəyini vurğuladı.

Bu il yeni məktəblərin, tibb müəssisələrinin, olimpiya idman komplekslərinin, «ASAN xidmət» mərkəzlərinin, xalça fabriklərinin tikiləcəyini deyən ölkə Prezidenti sahibkarlığın inkişafı ilə bağlı əlavə addımların atılacağını, xaricdə yeni ticarət evlərinin açılacağını qeyd etdi. Ölkədə yeni sənaye parklarının və məhəllələrinin yaradılmasının əhəmiyyətinə toxunaraq, kənd təsərrüfatında, həmçinin turizm sahəsində islahatların nəticə verəcəyinə əmin olduğunu bildirdi. Prezident İlham Əliyev böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar 2019-cu ili «Nəsimi İli» elan etdiyini bildirmişdir.

Hesabat ilində Siyəzən rayonunun iqtisadiyyatı uğurla inkişaf etmiş, qarşıya qoyulan bütün vəzifələr icra olunmuşdur. Sənayedə, rayon iqtisdiyyatına cəlb olunmuş investisiya qoyuluşunda, kənd təsərrüfatı məhsulları istehsalında, pərakəndə ticarət və ödənişli xidmət göstərilməsində artımlar olmuş, iqtisadiyyatın əsas sahələri üzrə ümumi məhsul buraxılışı 8,7 faiz, əhalinin pul gəlirləri 6,2 faiz, adambaşına düşən məbləğ 6,1 faiz, sənaye fəaliyyəti ilə məşğul olan subyektlər tərəfindən istehsal edilmiş məhsul 5,7 faiz artmışdır.

Mədənçıxarma sənayesində ilin əvvəlindən 50,9 min ton neft, 10,4 milyon kub metr qaz hasil edilmiş, emal sənayesində istehsal edilmiş məhsul 3 faiz, elektrik enerjisi, qaz, su bölməsində sənaye xarakterli xidmətlərin həcmi 19,7 faiz artmışdır.

2018-ci ildə rayon üzrə bütün maliyyə mənbələri hesabına istifadəyə verilmiş əsas fondlar əvvəlki il ilə müqayisədə 2,1 faiz çoxdur. İstifadə edilmiş investisiyanın 62,3 faizini dövlət mülkiyyəti, 37,7 faizini qeyri-dövlət mülkiyyəti təşkil etmişdir.

Rayon üzrə ümumi investisiyanın 27 faizi Dövlət Neft Şirkəti tərəfindən mədənçıxarma sənayesinin inkişafına, 19,8 faizi su-kanalizasiya təchizatının yaxşılaşdırılmasına, 15 faizi avtomobil yollarının tikintisinə, 12,6 faizi «Siyəzən Broyler» Açıq Səhmdar Cəmiyyəti tərəfindən quşçuluğun inkişafına, 17,1 faizi rayonun elektrik enerjisi təminatının yenidən qurulmasına və sair tikinti işlərinə sərf edilmişdir.

Keçən il də Siyəzən rayonuna özəl investisiya qoyuluşu istiqamətində işlər davam etdirilmişdir. Təkcə kənd təsərrüfatının inkişaf etdirilməsi ilə bağlı icrasına başlanmış layihələrin ümumi dəyəri 21,095 milyon manatdır. Qoyulmuş investisiya hesabına aqropark və iri toxumçuluq təsərrüfatı yaradılmasına başlanmış, 70 ha badam bağı, kənd təsərrüfatı məhsullarının saxlanılması üçün anbarlar və kənd təsərrüfatı məhsullarının satış cərgəsi tikilmişdir.

Rayonda sahibkarlığın inkişaf etdirilməsi daim diqqət mərkəzində saxlanılmış, Siyəzən şəhərində Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin («KOB Dostu») mərkəzi yaradılmışdır. Mərkəzdə sahibkarlara müvafiq xidmətlərin göstərilməsi üçün lazımi şərait yaradılmışdır. Keçən il rayon üzrə Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına 6 investisiya layihəsinə 162 min manat vəsait ayrılmış, 20 yeni iş yeri yaradılmışdır.

2018-ci ildə Siyəzən rayonunda bir sıra tikinti, abadlıq və quruculuq işləri həyata keçirilmişdir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən dövlət büdcəsindən Siyəzən rayonunda çoxmənzilli yaşayış binalarının təmiri üçün ayrılmış vəsait hesabına ilin əvvəlindən Siyəzən şəhərində 6 ədəd çoxmənzilli yaşayış binalarının giriş blokları təmir olunmuşdur. Siyəzən şəhərinin Bəşir Səfəroğlu küçəsində piyada səkisi salınmış, küçəyə 600 metr beton bardur qoyulmuş, 500 kvadratmetr tamet tavalar döşənmiş, piyada səkisinin işıqlandırılması üçün səkinin kənarına 10 ədəd müasir işıq dirəyi quraşdırılmışdır. Şəhərin 28 May küçəsinə 400 metr beton bardur qoyulmuş, piyada səkisinə 700 kvadratmetr tamet tavalar döşənmişdir.

Heydər Əliyev küçəsində yararsız vəziyyətə düşmüş hasarların 400 kvadratmetr hissəsi aqlay daşı ilə üzlənərək yenidən təmir olunmuş, mini istirahət parkında yenidənqurma işləri aparılmış, parkın ətrafındakı hasar rənglənmiş, parka 7 ədəd oturacaq qoyulmuş, piyada səkilərinin yararsız vəziyyətə düşmüş 600 metr hissəsi təmir olunmuş, küçə boyu 700 ədəd dekorativ kollar əkilmiş, şəhər ərazisində 40-a yaxın işıq dirəyi yenisi ilə əvəz edilmişdir.

Cabir Novruz küçəsində əhalinin rahat gediş-gəlişinin təmin edilməsi üçün piyada səkisi salınmış və səkiyə 500 kvadratmetr tamet tavalar döşənmişdir.

Şəhərin Tofiq İsmayılov, Heydər Əliyev və Hökmulla Talıbov küçələrində 3 çoxmənzilli yaşayış binasının yararsız vəziyyətdə olan dam örtükləri (müvafiq olaraq 455, 1390, 1050 kvadratmetr) sökülmüş və yenidən dalğalı metal vərəqlərlə vurulmuşdur.

5 saylı körpələr evi-uşaq bağçasında yararsız vəziyyətdə olan 24 taxta qapı və pəncərə plastik qapı və pəncərələrlə əvəzlənmiş, binanın daxili divarlarının 200 kvadratmetr hissəsi təmir olunmuş, rənglənmişdir.

İl ərzində şəhərdaxili yollara ümumilikdə 27000 kvadratmetr asfalt, 49400 kvadratmetr qum-çınqıl qarışığı verilərək küçələr təmir olunmuşdur.

2018-ci ildə kənd təsərrüfatı sahəsində də nailiyyətlər əldə edilmişdir. Belə ki, əsas kənd təsərrüfatı məhsullarının istehsalı, heyvanların, quşların və arı ailələrinin sayı əvvəlki il ilə müqayisədə 4,3 faiz artmışdır. Belə ki, keçən ilin məhsulu üçün əkin sahələri 35,8 faiz artmış, 6 min 847 ton buğda, 4 min 375 ton arpa, 322 ton dən üçün qarğıdalı, 40 ton noxud, 10 ton lobya, 2,5 ton soya yığılmış və əvvəlki il ilə müqayisədə dənli bitkilərin istehsalı 13,7 faiz artmış, 60 ton şəkər çuğunduru, 31 ton dən üçün günəbaxan, 378 ton kartof, 22 ton tərəvəz, 970 ton bostan bitkisi yığılmış, 1520 ton quru ot toplanmışdır. Meyvə bağlarından 2 min 286 ton meyvə, üzüm bağlarından 380 ton üzüm toplanmış, əvvəlki il ilə müqayisədə meyvə istehsalı 5,4 faiz, üzüm istehsalı 21,8 faiz artmışdır.

İl ərzində iri buynuzlu mal-qaranın sayı 0,9 faiz, xırda buynuzlu heyvanların sayı 0,6 faiz, süd istehsalı 0,3 faiz, yumurta istehsalı 0,2 faiz artmışdır.

2018-ci ildə «Samur-Abşeron suvarma sisteminin yenidən qurulması» layihəsi çərçivəsində Siyəzən rayonunun ərazisində həyata keçirilən tədbirlər başa çatdırılmış, mövcud suvarılan torpaqların su təminatı yaxşılaşdırılmış, 6413,6 hektar torpaq sahəsində suvarma sistemləri qurulmuşdur. İstifadəyə verilmiş yeni suvarılan torpaqların 1333,8 hektarı Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Sərəncamı ilə əkin dövriyyəsinə cəlb edilmiş, əlavə olaraq 1147 hektar torpaq sahəsinin təyinatının dəyişdirilərək əkin dövriyyəsinə cəlb olunması üçün işlər aparılır.

Hesabat ilində Rayon Təhsil Şöbəsi öz işini Azərbaycan Respublikasının Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası» əsasında müəyyənləşdirilmiş tədbirlər əsasında qurmağa çalışmışdır. 2017-2018-ci dərs ilində ümumtəhsil məktəblərinə 6657 nəfər şagird cəlb edilmiş, şagirdlərin təhsili ilə 765 nəfər müəllim məşğul olmuşdur. 2018-ci ildə attestat almış 381 məzundan 284 nəfəri ali məktəblərə qəbul imtahanlarında iştirak etmişdir. Ümumilikdə isə 179 nəfər, o cümlədən 1 nəfər qızıl medal almış məzun ali məktəblərə qəbul olmuşdur. Qəbul olunanlar arasında 13 məzun 600, 30 məzun isə 500-dən çox bal toplamışdır.

2018-ci ildə rayonda fəaliyyət göstərən Siyəzən Rayon Mərkəzi Poliklinikası, Siyəzən Regional Müalicə Diaqnostika Mərkəzi və Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən əhalinin sağlamlığının qorunması sahəsində məqsədyönlü işlər həyata keçirilmişdir. Rayonun səhiyyə müəssisələrinə peyvənd, vaksin materialları vaxtında çatdırılmış və rayon əhalisi arasında xüsusi təhlükəli infeksiyalar qeydə alınmamışdır.

Dövlət başçısının tapşırığına uyğun olaraq 2018-ci il fevral ayının 10-dan may ayının 1-dək rayon əhalisinin tibbi müayinədən keçirilməsi məqsədilə Siyəzən Rayon İcra Hakimiyyəti başçısı tərəfindən Sərəncam imzalanmış və əhalinin tibbi müayinədən keçirilməsi qrafiki təsdiq olunmuşdur. Tibbi müayinə zamanı əhalinin 2308 nəfəri ambulator, 98 nəfəri stasionar müalicəyə cəlb olunmuş, 8 nəfər isə müalicə olunmaq üçün Bakı şəhərinə göndərilmişdir. Möhtərəm Prezident cənab İlham Əliyevin tapşırığına əsasən cari ilin fevral ayının 11-dən əhalinin növbəti dəfə tibbi müayindən keçirilməsinə başlanılmışdır.

Rayonun mədəniyyət müəssisələri tərəfindən əhaliyə göstərilən mədəniyyət xidmətinin səviyyəsi artırılmış, il ərzində müxtəlif mövzularda 47 adda tədbir keçirilmişdir. Heydər Əliyev Mərkəzində dəyirmi masalar, açıq dərslər və digər tədbirlər həyata keçirilmişdir. Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə əlaqədar Mərkəzdə rayonun ümumtəhsil müəssisələrinin şagird və müəllim kollektivlərinin iştirakı ilə «Heydər Əliyev Müstəqil Azərbaycanın qurucusu və memarıdır», «Ulu Öndər Heydər Əliyev-95» mövzularında açıq dərslər və «Heydər Əliyev xalqımızın yaddaşına əbədi həkk olunmuş dahi şəxsiyyətdir» mövzusunda elmi-praktiki konfrans keçirilmişdir.

Siyəzən Rayon Gənclər və İdman İdarəsinin əsas fəaliyyət prinsiplərini rayonda gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması və gənclər siyasətinin aparılması təşkil edir. Siyəzən idmançısı Şəhanə Nəzərova yeniyetmə qızlar arasında Türkiyədə keçirilən Beynəlxalq turnirdə, Makedoniyada keçirilən Avropa çempionatında və Xorvatiyada keçirilən Dünya çempionatında gümüş medal və Argentinada keçirilən yeniyetmələrin 3-cü Olimpiya oyunlarında bürünc medal qazanmışdır.

Keçən il ərzində rayon əhalisinin sosial vəziyyəti zəif olan təbəqəsi daim diqqət mərkəzində saxlanılmışdır. Belə ki, il ərzində Dövlət Sosial Müdafiə Fondunun Siyəzən Rayon şöbəsindən 4389 nəfər əmək pensiyası, 1575 nəfər sosial müavinət, 238 nəfər Prezident təqaüdü almışdır. Əmək pensiyaları haqqında Qanunda edilmiş dəyişikliyə əsasən cari ilin əvvəlindən pensiya hüququ yaranmış şəxslərin 70 faizinin pensiya təyinatı avtomatlaşdırılmış qaydada aparılması nəzərdə tutulmuşdur.

(Davamı 4-cü səhifədə)

# SİYƏZƏN RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI ASİF HÜSEYNOVUN 2018-Cİ İLİN YEKUNLARI İLƏ BAĞLI HESABAT MƏRUZƏSİ

(Əvvəli 3-cü səhifədə)

Hesabat ilində əhalinin məşğulluq məsələləri daim nəzarətdə saxlanılmış, ilin əvvəlindən 609 yeni, o cümlədən 457 daimi, 152 müddətli iş yeri açılmışdır. Daimi iş yerlərindən 17 iş yeri yeni yaradılmış müəssisə və təşkilatlar, 440 iş yeri isə fiziki şəxslər tərəfindən yaradılmışdır. Bundan başqa keçən il Azərbaycan Prezidentinin müvafiq sərəncamına əsasən rayon əhalisinin özünüməşğulluq layihəsinin icrasına 33 vətəndaş cəlb edilmişdir.

Ölkə Prezidentinin tapşırığına əsasən 2019-cu ilin əvvəlindən ictimai işlərin təşkili ilə bağlı yeni mexanizmi nəzərdə tutan «İşsizin DOSTu» proqramına başlanmışdır. Rayonumuzda bu proqram çərçivəsində 200-dək ictimai işlərə cəlb edilən iş yerləri yaradılacaqdır.

İl ərzində rayon əhalisi dayanıqlı kommunal xidmətləri ilə təmin olunmuşdur. Siyəzən Elektrik Şəbəkə «Azərişıq» ASC-nin idarəedilməsinə verildikdən sonra rayonun elektrik təsərrüfatında yenidənqurma işlərinə başlanmışdır. Belə ki, şəhər ərazisində 35 kilovoltluq müasir tipli yarımstansiya tikilərək istismara verilmiş, 6 kilovoltluq hava xətləri dövrədən çıxarılaraq, elektrik təsərrüfatı sip və yeraltı kabellərlə əvəz olunmuş və rayon ərazisi dayanıqlı elektrik enerjisi ilə təmin olunmuşdur. Bu işlər dağ kəndlərində bu gün də davam etdirilir.

Rayon əhalisinin təbii qaz təminatında da ciddi problemlər yoxdur. Lakin Məşrif kənd inzibati ərazi dairəsinə daxil olan kəndlərdə qazlaşma işlərinin davam etdirilməsinə və qazlaşdırılmış bəzi kəndlərdə salınmış yeni yaşayış massivlərinin qazlaşdırılmasına ciddi ehtiyac vardır.

Siyəzən şəhərində əhalinin su-kanalizasiya sistemlərinin yenidən qurulması ilə əlaqədar əhalinin içməli su və kanalizasiya problemləri demək olar ki, aradan qaldırılmışdır. Hazırda Təmizləyici qurğuda son tamamlama işləri aparılır

Hesabat ilində rayonda 6 siyasi partiyanın yerli təşkilatı fəaliyyət göstərmişdir. Rayonun ictimai-siyasi həyatında mühüm rol oynayan Yeni Azərbaycan Partiyasının Siyəzən Rayon təşkilatı 1995-ci ilin fevral ayında təsis olunmuşdur. Rayon təşkilatının 42 ilk təşkilatı, 3608 nəfər üzvü və şəhərin mərkəzində müasir tələblərə cavab verən binası vardır.

İctimai asayişin qorunması, cinayətkarlığın və hüquq qaydalarının pozulması, eləcə də korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə tədbirlərinin gücləndirilməsi istiqamətində rayonun hüquq-mühafizə orqanları tərəfindən bir sıra tədbirlər həyata keçirilmişdir. Keçən il Polis Şöbəsi tərəfindən qeydə alınmış 71 cinayət işinin, narkotik maddələrin istifadəsi və dövriyyəsi ilə əlaqədar qeydə alınmış 29 faktın hamısının, iqtisadi sahədə baş vermiş 21 cinayət hadisəsindən isə 96,4 faizinin açılması təmin edilmişdir.

2018-ci ildə «Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında» Azərbaycan Respublikası Qanununa uyğun olaraq ötən il gənclərin ordu sıralarına hazırlanması, onların tibbi müayinədən keçməsi işinə diqqət xeyli artmışdır. İl ərzində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Siyəzən rayon şöbəsi tərəfindən 208 nəfər siyəzənli gəncin həqiqi hərbi xidmətə göndərilməsi tapşırığı vaxtında yerinə yetirilmişdir.

Hesabat ilində Rayon İcra Hakimiyyəti başçısının 11 inzibati ərazi dairəsi üzrə nümayəndəliyi fəaliyyət göstərmişdir. Cari ilin yanvar ayında nümayəndəliklərdə hesabat yığıncaqları keçirilmiş və hesabat ilində görülmüş işlər müzakirə olunaraq qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir.

Siyəzən rayonunda 11 bələdiyyə fəaliyyət göstərir. Onlar rayonun sosial-iqtisadi inkişafında, abadlıq-quruculuq işlərində və yerli əhəmiyyətli məsələlərin həllində və «Bir bələdiyyə bir layihə» təşəbbüsü çərçivəsində müəyyən işlər görmüş, gəlirlərinin 83,8 faizini tikinti, təmir, abadlıq işlərinin aparılmasına, maşın və mexanizmlərin alınmasına sərf etmişlər. Bu sahədə Siyəzən, Yenikənd, Həmyə, Zarat və Sədan bələdiyyələri fərqlənmişlər.

Yerli icra hakimiyyətləri haqqında Əsasnamə» ilə müəyyən edilmiş vəzifə və səlahiyyətlərin həyata keçirilməsində İcra Hakimiyyəti başçısı aparatında və inzibati ərazi dairələri üzrə nümayəndəliklərdə idarəetmənin müasir stil və metodlarından, informasiya-kommunikasiya texnologiyalarından istifadə edilmiş, Operativ İdarəetmə Mərkəzi vasitəsilə 6 inzibati ərazi dairəsi üzrə nümayəndəlik arasında videokonfransların keçirilməsinə imkan yaradılmışdır.

2018-ci ildə Siyəzən Rayon İcra Hakimiyyəti başçısı aparatına vətəndaşlar tərəfindən 670 müraciət daxil olmuşdur. İcra Hakimiyyəti başçısı tərəfindən Rayon İcra Hakimiyyətində 139 nəfər, səyyar qəbullarda 94 nəfər, Rayon İcra Hakimiyyəti başçısının müavinləri, şöbələrin və struktur bölmələrin rəhbərləri tərəfindən 119 nəfər vətəndaş qəbul edilmişdir.

2018-ci ilin yanvar-dekabr aylarında rayon iqtisadiyyatında muzdla çalışan işçilərin aylıq əmək haqqı 400,2 manat olmaqla əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,1 faiz artmış, büdcə gəlirlərinin 100 faizini yerli gəlirlər təşkil etmiş, xərclərinin 45 faizi əmək haqqı, sosial müdafiə və sosial təminat sahələrinin maliyyələşdirilməsinə xərclənmişdir.

Bildiririk ki, mövcud maliyyə çətinliklərinə baxmayaraq, cari ildə də rayonumuzda bir sıra işlərin görülməsi nəzərdə tutulmuşdur. Belə ki, artıq yerli ehtiyatlar və digər mənbələr nəzərə alınmaqla, 2019-cu il üçün müvafiq işlərin həyata keçirilməsinə başlanılmışdır. İlk növbədə yerli əhəmiyyətli yolların təmiri və abadlaşdırılması, kəndlərarası yol infrastrukturunun inkişaf etdirilməsi, şəhərdaxili küçələrin işıqlandırılması, şəhər ərazisində yeni mini istirahət parklarının tikilməsi işlərinin davam etdirilməsi və bu kimi digər sosial məsələlərin həll edilməsi nəzərdə tutulur. Tərəfimizdən rayonda turizmin inkişaf etdirilməsi üçün bütün imkanlar araşdırılmış və məsələlərin həllinə nail olunması istiqamətində müvafiq tədbirlər görülür. Aqrar sahənin daha da inkişaf etdirilməsi üçün məqsədyönlü işlər aparılır. İstehsal və xidmət obyektlərinin yaradılması, həmçinin kəndlərin abadlaşdırılması üçün tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Cari ildə təhsil, səhiyyə və mədəni-maarif müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi üçün bütün imkanlardan istifadə ediləcəkdir. Ayrı-ayrı ixtisaslardan olan müəllim və həkim kadrlara olan tələbatın ödənilməsi üçün əlaqədar respublika təşkilatları ilə birgə iş aparılacaqdır. Rayonun bütün ərazisinin dayanıqlı elektrik enerjisi ilə təmin edilməsi, qaz təchizatının yaxşılaşdırılması, yeni salınmış yaşayış massivlərinin və rayonun təbii qazı olmayan məntəqələrinin qazlaşdırılması üçün tədbirlər görüləcək. Siyəzən şəhərində su-kanalizasiya sistemi tikintisinin tam başa çatdırılması üçün bütün tədbirlər həyata keçiriləcəkdir. Büdcə gəlirlərinin artırılması üçün qanunvericiliyə uyğun bütün imkanlardan istifadə ediləcəkdir. Sahibkarlığın inkişaf etdirilməsi üçün imkanlar səfərbər ediləcək, görülmüş işlər nəticəsində yeni iş yerləri yaradılacaq, əhalinin məşğulluq səviyyəsi daha da yaxşılaşdırılacaqdır.

Sizi əmin edirəm ki, möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi altında ölkədə həyata keçirilən çoxşaxəli və uzunmüddətli strategiyaya uyğun olaraq hər yerdə olduğu kimi, rayonumuzda da sosial-iqtisadi sahədə nəzərdə tutulan bütün tədbirlər müvəffəqiyyətlə yerinə yetiriləcək, orta və kiçik sahibkarlığın inkişaf etdirilməsi üçün səylər artırılacaq və Siyəzən rayonu 2019-cu ili də uğurla başa vuracaqdır. Bu inamı bizə dövlət başçımızın həyata keçirdiyi uğurlu sosial-iqtisadi inkişaf kursu verir. Ona görə də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi əmin edirik ki, biz siyəzənlilər bundan sonra da rayon iqtisadiyyatının dinamik inkişafı və əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində işləri daha əzmlə davam etdirəcəyik.

**2 Fevral-Azərbaycan Gəncləri Günüdür**

## VƏTƏNƏ LAYİQ ÖVLAD OLMAĞA ÇALIŞIRIQ

Dövlətimizin gənclər siyasəti bu gün çox uğurla və məqsədyönlü şəkildə həyata keçirilir. Azərbaycan gənci elmi və intellektual dünyagörüşü ilə dünyadakı həmyaşıdları arasında seçilir. Dünyanın ən aparıcı ali təhsil ocaqlarında elmin müasir nailiyyətlərini öyrənən gənclik gələcəyin kadrlarıdır. Bu potensiala diqqət yetirən dövlət başçımızla fəxr duyuruq. Biz gənclər Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla və məqsədyönlü şəkildə davam etdirən liderimiz-Azərbaycan Prezidentinin rəhbərliyi ilə Vətənimizi daha da inkişaf etdirəcəyik.

Bu fikirlər 2 Fevral-Azərbaycan Gəncləri Günü münasibətilə Gənclər Mərkəzində keçirilmiş tədbirdə vurğulandı. Gənclər və İdman idarəsinin təşkilatçılığı ilə «Gəncliyimizlə qürur duyuruq» mövzusunda keçirilmiş konfransda rayonun fəal gəncləri, tələbələr, müəllim və şagirdlər, KİV nümayəndələri iştirak etmişlər.



Tədbiri giriş sözü ilə Gənclər və İdman idarəsinin rəisi Nadir Məmmədov açaraq konfrans iştirakçılarını Azərbaycan Gəncləri Günü münasibətilə təbrik etdi. Bildirdi ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Ölkə başçısı tərəfindən gənclərə göstərilən qayğı, imzalanmış fərmanlar, sərəncamlar, qəbul edilən qanunlar, müxtəlif dövlət proqramları Azərbaycan gəncliyinin inkişafının təməlini təşkil edir.

Daha sonra Siyəzən şəhər 4 saylı tam orta məktəbin müəllimi Zərbalı Yusifov, rayon Məşğulluq Mərkəzinin işçisi Natavan Məmmədova və Xəzər Universitetinin I kurs tələbəsi Lalə Şirinova çıxış edərək dövlət gənclər siyasətinin müxtəlif istiqamətləri barədə məlumat verdilər.

Çıxışlar zamanı qeyd edildi ki, bu gün gənclərin hərtərəfli inkişafı üçün ardıcıl tədbirlər görülür, elm və təhsil ocaqları, gənclər evləri, idman kompleksləri tikilib istifadəyə verilir. Gənclərin respublikanın ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə irəli çəkilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilməkdədir.

Siyəzən Rayon İcra Hakimiyyətinin baş məsləhətçisi Elvin Kərimov tədbir iştirakçılarını təbrik edərək ölkəmizdə dövlət gənclər siyasətinin uğurla həyata keçirilməsini vurğuladı, onlara qayğı və diqqətin müntəzəm artırılmasından danışdı.

Sonda isə müxtəlif sahələrdə uğurlar qazanmış bir qrup gəncə fəxri fərman və hədiyyələr təqdim edildi.

**R. MURADOVA.**

## «OXU BAYRAMI» MÜSABİQƏSİ

Xaçmaz Regional Mədəniyyət İdarəsi regionda gənc nəslin formalaşmasında mühüm rol oynayan «Oxu bayramı» adlı müsabiqənin keçirilməsini məqsədəuyğun hesab edir.

Müsabiqənin məqsədi Ulu Öndər Heydər Əliyevin doğum günü münasibətilə «Oxu bayramı» mütaliə ənənələrinin təbliği, perspektivləridir. Müsabiqədə 15 yaşdan yuxarı kitabsevərlər iştirak edə bilərlər. Bunun üçün Mərkəzləşdirilmiş Kitabxana Sisteminə müraciət etməniz lazımdır.

Sənədlərin qəbulu 1 may 2019-cu il tarixində başa çatır.

Redaktor
İlyas İLYASOV

Təsisçilər:
Siyəzən Rayon İcra Hakimiyyəti başçısının aparatı və redaksiyanın jurnalist kollektivi

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır
Qeydiyyat № 314
Redaksiyanın ünvanı:
Siyəzən şəhəri,
Şəhriyar küçəsi, 1a

Qəzet "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur

Sifariş 598
Tiraj 500
"Kapitalbank"ın Siyəzən filialı
AZ 20 AİİB
33080019445500250155
kod 200554
VÖEN 7100046791
telefon: 304-04-83